# AZƏRBAYCAN RESPUBLİKASINDA YENİ ŞƏHƏRLƏRİN FORMALAŞMA VƏ İNKİŞAF PROBLEMLƏRİ

**Nağıyev Nizami Həsən oğlu**– memarlıq doctoru, prof., Memarlığın əsasları kafedrası, AzMİU, nizaminagiyev@gmail.com

**Annotasiya.** Yeni şəhərlərin planlaşdırılması və tikintisi məsələlərini müvəffəqiyyətlə həll etmək üçün onların tikintisi təcrübəsinin öyrənilməsi və təhlili böyük əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasında yeni şəhərlər dünya şəhərsalma tarixində misli görünməmiş templərlə inşa edilmişdir. Yalnız ən iri şəhərlərdə (Mingəçevir, Əli- Bayramlı (indiki Şirvan), Sumqayıt və s.) artıq 500 mindən çox insan yaşayır. Burada yüz minlərlə mənzil, minlərlə mədəni-məişət xidməti binası tikilmiş, ərazinin mühəndis hazırlığı, sanitar- texniki avadanlıq və yaşıllaşdırma üzrə çox böyük işlər görülmüşdür. Şəhərlərin yeni planlaşdırma strukturu, yaşayış ərazisinin mikrorayonlara və yaşayış rayonlarına ayrılması, sənaye- tikinti metodları, abadlığın və mühəndis avadanlıqlarının yeni texniki səviyyəsi - bütün bunlar şəhərsalma mütəxəssislərinin qarşısında təkcə texniki və iqtisadi məsələlərin həllini deyil, həm də şəhərlərin yeni memarlıq- bədii simasının yaradılması zərurətini qoyur. Müasir şəraitdə bütünlükdə mikrorayonların, yaşayış rayonlarının və bütövlükdə şəhərin məkan kompozisiyasının yaradılması üçün tam imkan vardır.Müasir şəhərlərin tikintisində yaşayış və ictimai binaların yerləşdirilməsi üçün sərbəst təsviri üsullardan daha geniş istifadə olunur; bu, tikintini ərazinin relyefi, yaşıllıqlar, su anbarlarının konturları ilə daha üzvi şəkildə birləşdirməyə və insolyasiya, havalandırma, səs- küydən müdafiə tələblərini daha yaxşı təmin etməyə imkan verir.
**Açar sözlər:** yeni şəhərlər, şəhərsalma, planlaşdırma, sənaye, sənaye binaları, mülki binalar, mənzil tikintisi, mədəni-məişət xidməti, yaşıllaşdırma

# PROBLEMS OF FORMATION AND DEVELOPMENT OF NEW CITIES IN THE REPUBLIC OF AZERBAIJAN

**Nagiyev Nizami Hasan**– doctor of architecture, prof., departament of Basis of Architecture, AzUAC, nizaminagiyev@gmail.com

**Abstract.** To successfully solve the problems of planning and development of new cities, the study and analysis of the practice of their construction is of great importance. New cities in the Republic of Azerbaijan were built at an unprecedented pace in the history of world urban planning. More than a million people already live in the largest new cities as Mingechaur, Ali-Bayramly (now Shirvan), Sumgait, etc. Hundreds of thousands of apartments, thousands of buildings of cultural and welfare services were built here, major works on engineering preparation of the territory, sanitary and technical equipment and landscaping were carried out. The new city planning structure, large divisions of the settlement territory into neighbourhoods and residential areas, industrial construction methods, a new technical level of landscaping and engineering equipment - all this puts the need for urban planners to solve not only technical and economic problems but also the creation of a new architectural and artistic appearance of cities. In modern conditions, it is possible to create a spatial composition of entire neighbourhoods, residential areas and the whole city. In the development of modern cities, free picturesque techniques for the placement of residential and public buildings are increasingly used; this allows to connect the building more organically with the terrain, green spaces, the shape of the reservoirs and better ensure the requirements for insolation, ventilation, noise protection.
**Keywords:** new cities, urban planning, planning, industry, industrial buildings, civilian buildings, housing construction, cultural and welfare services, landscaping

Azərbaycan Respublikasında şəhərsalma XX əsrdə regionların sənaye inkişafı ilə əlaqədar iki istiqamətdə inkişaf etmişdir. Köhnə şəhərlər genişləndirilməsi və yenidən qurulması, eyni zamanda yeni şəhərlərin salınması Azərbaycanda şəhərsalmanın hər iki istiqaməti bir məqsədə– əhali üçün daha yaxşı əmək, məişət və istirahət şəraitinin yaradılmasına xidmət edir. Lakin bu məqsədə müxtəlif yollarla çatmaq olur. Yeni şəhərlərdə planlaşdırmanın mütərəqqi üsullarının tətbiqi əvvəldən müasir tələblərə cavab verən planlaşdırma strukturunu yaratmağa imkan verir. Yenidən qurulan köhnə şəhərlərdə az və ya çox dərəcədə tarixi təşəkkül tapmış planlaşdırma və tikinti ilə hesablaşmaq lazım gəlirdi. Buna görə də köhnə şəhərlərin yenilənməsi köhnəlmiş maddi fondların dəyişdirilməsi və bu əsasda planlaşdırma strukturunun tədricən dəyişdirilməsi yolu ilə ardıcıl şəkildə aparılır. Bu proses nəticəsində köhnə şəhərlər yeni şəhərsalma keyfiyyətləri əldə edir və öz planlaşdırma strukturuna görə yeni şəhərlərə yaxınlaşır [1].

Azərbaycan Respublikasında yeni şəhərlərin tikintisi görünməmiş miqyasda həyata keçirilir. 1960- cı ilə qədər respublikada 9- a yaxın yeni şəhər yaradılmışdır. Yeni şəhərlərin tikintisi və sürətlə böyüməsi, ilk növbədə, ağır sənayenin və energetikanın nəhəng miqyasda və sürətli inkişaf tempindən irəli gəlir. İstehsal güclərinin Azərbaycan ərazisində səmərəli yerləşdirilməsi probleminin həlli ilə sıx bağlı olan yeni şəhərlərin yaradılması, ölkənin sürətli iqtisadi və mədəni inkişafı üçün çox böyük əhəmiyyətə malikdir. Yeni şəhərlər, əsasən əhalisi az olan və sənaye az inkişaf etmiş rayonlarda salınırdı. 30- cu illərin sonunda ilk yeni şəhərlərin- Xəzər dənizi sahilində Sumqayıt, Mingəçevir su elektrik stansiyasının tikilməsi ilə əlaqədar Mingəçevir və Kür çayının sahilində Əli- Bayramlı (indiki Şirvan) şəhərinin inşasına başlandı. Hal- hazırda, tikintisinə 30-40- cı illərdə başlanan yeni şəhərlər yüz minlərlə sakini əhatə edir və ən iri sənaye və mədəniyyət mərkəzləridir [2].

Yeni tikilən ilk iri sənaye binaları müasir şəhərsalmanın mütərəqqi ideyalarının əməli surətdə həyata keçirilməsinin təməlini qoymuşdur. Əsas iş yeri kimi sənaye müəssisələrinin rolu köklü şəkildə dəyişmişdir; yeni şəhərlərdə sənaye müəssisələri şəhər strukturunun əsas elementlərindən birinə çevrilmişdir. Qoruyucu yaşıllıq zonaları ilə yaşayış sahəsindən ayrılan sənaye rayonları yarandı. Yaşayış rayonlarının planlaşdırılmasında və tikintisində radikal dəyişikliklər baş verdi. Yaşayış evlərinin və ictimai binaların yeni növləri (məktəbəqədər təhsil müəssisələri, mədəniyyət evləri və sarayları, klublar, profilaktoriyalar və s.) meydana gəldi. Yaşayış kvartallarının tikintisinin təşkili və üsulları dəyişdi ki, bu da yaşayış evlərinin bütün sanitar- gigiyenik tələbləri nəzərə alınmaqla, məktəblərə, uşaq müəssisələrinə, yeməkxana və digər mədəni- məişət xidməti binalarına yaxın yaşıllıqlar içərisində abadlaşdırılmış iri məhəllələrin yaradılmasına imkan verdi. Onlar köhnə şəhərlərin xırda, ayrı- ayrı evlərə bölünmüş və səliqəsiz tikilmiş məhəllələrindən tamamilə fərqlənirdi. Beləliklə, müasir şəhərlərin yeni strukturu formalaşmağa başladı [3].

70-ci illərdə mənzil və mədəni- məişət tikintisinə kapital qoyuluşlarının artması və sənaye və mülki binaların tikintisində sənaye üsullarına keçidlə əlaqədar yeni şəhərlərin tikintisinin həcmi və templəri köklü şəkildə dəyişdi. Bir çox yeni şəhərlərdə böyük ev tikintisi kombinatları istifadəyə verildi. Güclü tikinti sənayesinin yaradılması iri yaşayış binaları və mədəni-məişət xidməti binaları olan şəhərlərin tikilməsinə, əhalinin gigiyena və mədəni məişət tələblərinə uyğun rahat mənzillərlə təmin olunmasına, əlverişli əmək və istirahət şəraitinin yaradılmasına imkan verdi.

Yeni şəhərlərin strukturu təkmilləşir: sənaye müəssisələrinin yerləşdirilməsi daha rasional hala gəlir, yaşayış yerlərinin mikrorayonlarla tikintisinin yeni mütərəqqi prinsipi həyata keçirilir, nəqliyyat vasitələrinin diferensiasiyası əsasında nəqliyyat magistralları sistemi daha dəqiq təşkil olunur, ictimai mərkəzlər sistemi inkişaf edir, şəhərlərin sanitar- gigiyenik keyfiyyətləri yaxşılaşır, onların memarlıq görkəmi yeni cizgilər, xüsusiyyətlər əldə edir [4].

XX əsrin sonunda Azərbaycan Respublikasının müstəqillik qazanması ilə əlaqədar, qarşıda iqtisadiyyatın sürətlə inkişaf etdirilməsi vəzifəsi durur. Müasir inkişaf tələblərinə cavab verən yeni sənaye müəssisələrinin yaradılması rayonlarda təbii sərvətlərin, xammal və enerji ehtiyatlarının mənimsənilməsi üçün yeni şəhərlərin yaradılmasını tələb edəcəkdir.

Yeni şəhərlər yerləşmə şərtlərinə, böyüklüyünə, şəhər yaratma bazasına, quruluşuna və memarlıq görkəminə görə çox müxtəlif olacaq. Lakin bütün müxtəlifliyə baxmayaraq onlar əsas

tələblərə cavab verməlidirlər- insanların həyatı üçün sağlam və rahat, eyni zamanda şəhərsalma baxımından iqtisadi və daha səmərəli olmalıdırlar. Bu tələb əsasında yeni şəhərlərin optimal ölçüsü müəyyənləşdirilir, onların artımı tənzimlənir və planlaşdırma strukturu formalaşır.

Məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsinin ümumi perspektivlərinin təhlili, şəhəryaratma bazasının xarakterinə və məskunlaşma sistemində əhəmiyyətinə görə müxtəlif olan yeni şəhərlərin bir neçə əsas növünü müəyyənləşdirməyə imkan verir. Yeni şəhərlərin ən geniş yayılmış növü 100 minə yaxın əhalisi olan, müxtəlif istehsal komplekslərinin bazasında inkişaf edən sənaye şəhəridir. Bu bir sıra mühüm sənaye sahələrinin: neft emalı və neft- kimya, kimya, maşınqayırma, dəzgahqayırma, cihazqayırma, ağac emalı və s. sahələrin inkişaf ehtiyaclarını təmin edir.

Metallurgiya sənayesi və ya enerji tutumlu istehsalat əsasında xüsusilə iri sənaye komplekslərinin meydana gəlməsi, tikinti rayonlarında güclü elektrik stansiyalarının inkişafı 150-200 və hətta 300 min sakin üçün daha iri şəhərlərin tikintisini tələb edəcəkdir. Belə böyük şəhərlərin tikintisi, iri iqtisadi və mədəni mərkəzlərin ölkə ərazisində bərabər paylanılması üçün bu mərkəzlərin formalaşmış sistemini tamamlamaq zərurətindən də irəli gəlir. Kənd yaşayış məntəqələri şəbəkəsinin yenidən formalaşması və aqrar- sənaye komplekslərinin yaradılması ilə əlaqədar kənd təsərrüfatı rayonlarında da müxtəlif tipli yeni şəhərlər və şəhər tipli qəsəbələr tikiləcəkdir. Ölkənin müxtəlif bölgələrində yeni kurort şəhərlərinin salınması Azərbaycan Respublikasında böyük perspektivlərə malikdir.

Xalq təsərrüfatının ümumi inkişaf perspektivi, sənayenin və yaşayış yerlərinin yerləşdirilməsini müəyyənləşdirən məhsuldar qüvvələrin perspektiv yerləşdirilmə sxemi və ölkənin ayrı- ayrı bölgələrinin rayon planlaşdırma layihələri, ayrı- ayrı yeni şəhərlərin müvafiq ölçüsünün müəyyən edilməsi və onların böyüməsinin tənzimlənməsi üçün əsasdır. Yeni şəhərlərin inkişaf perspektivlərinin düzgün elmi əsaslandırılmış şəkildə proqnozlaşdırılması onların strukturunun formalaşdırılması və tikintisi məsələlərinin həlli üçün çox böyük əhəmiyyətə malikdir.

Yeni şəhərlərin strukturu müasir cəmiyyətin yeni, müqayisəedilməz dərəcədə daha yüksək inkişaf səviyyəsinə və elmi- texniki tərəqqinin yaratdığı yeni imkanlara uyğun, əhali üçün əmək, məişət və istirahət şəraitinin yaradılmasını təmin etməlidir. Bu əməyin, məişətin və istirahət təşkilində yeni tendensiyaların nəzərə alınmasını tələb edir. Sənaye əksər şəhərlərin xarakterinə və strukturunun formalaşmasına daha çox təsir göstərir. Sənaye müəssisələrinin mühüm struktur rolu bundan sonra da qorunub saxlanılacaq, hərçənd əmək məhsuldarlığının və ictimai xidmətin inkişafının artması ilə əmək qabiliyyətli əhalinin tərkibində sənaye kadrlarının sayı öz xüsusi çəkisinə görə azalacaqdır. Amma eyni zamanda, sənaye istehsalının özünün xarakterində elə köklü dəyişikliklər baş verəcək ki, bu da həm sənaye müəssisələrinin yerləşdirilməsi məsələlərini, həm də onların mənzillə və öz aralarında qarşılıqlı əlaqələrini yeni bir şəkildə həll etməyə imkan verəcəkdir.

Məişətin təşkilində inkişaf meyilləri, xırda ev təsərrüfatında qeyri-istehsal əməyini sıxışdıran yüksək mütəşəkkil ictimai xidmətin rolunu hərtərəfli artırmağa yönəlmişdir. Cəmiyyətin inkişafının müasir mərhələsində bütün xidmət növlərinin köklü şəkildə yaxşılaşdırılması və genişləndirilməsi nəzərdə tutulur: istehlakçılara xidmət və məhsulun keyfiyyəti köklü surətdə yaxşılaşdırılmaqla, əhalinin ehtiyacları tam ödənilənədək ictimai iaşə müəssisələri şəbəkəsi xeyli genişlənəcək; əhalinin körpələr evi, uşaq bağçası və meydançalara, günuzadılmış məktəblərə olan tələbatının ödənilməsi, habelə uşaqlara pulsuz qulluq göstərilən internat məktəbləri şəbəkəsinin genişləndirilməsi təmin ediləcək; əhalinin hər növ yüksək ixtisaslı tibbi xidmətə olan tələbatı tam ödəniləcək, xəstəxanalar, poliklinikalar, sanatoriyalar, istirahət ocaqları şəbəkəsi xeyli genişlənəcək, kinoteatrların, klubların, idman qurğularının sayı artırılacaq. Məişət xidməti müəssisələri yeni texniki baza əldə edəcək.

Beləliklə, şəhərin strukturunun formalaşmasında ictimai xidmət getdikcə daha böyük əhəmiyyət daşıyacaqdır. Yaşayış və ictimai binaların daha rahat və qənaətcil tiplərinin yaradılması və onların ictimai xidmətin təşkili və inkişafı tələblərinə tam uyğun gələn qruplaşması xüsusi aktuallıq kəsb edir. Tikinti təcrübəsi göstərir ki, bu problemin həllinə yaşayış rayonlarının, mikrorayonların və ictimai mərkəzlərin təşkili edilməsi ilə nail olmaq mümkündür. Yaşayış binalarının və ictimai xidmətin səmərəli təşkili şəhərlərdə qarışıq mərtəbəli və tərkibində ictimai

təyinatlı otaqlar olan yüksək mərtəbəli evlərin yeni tiplərinin tikintisinin getdikcə daha geniş tətbiq edilməsi ilə də bağlıdır.Şəhər əhalisinin istirahətinin müasir şəraitdə təşkili iki istiqamətdə həyata keçirilir. Bir tərəfdən bağlar, parklar, su anbarları, açıq məkanlar şəhərin strukturunda və tikintisində getdikcə daha böyük rol oynayır. Digər tərəfdən, şəhərkənarı istirahətin müxtəlif növləri böyük əhəmiyyət kəsb etməyə başlayır. Təcrübə göstərir ki, şəhər əhalisinin istirahət problemi şəhərdə və şəhərətrafı zonalarda yaşıllıqlar sisteminin inkişafı və şəhər kənarında, daha mənzərəli və sağlam yerlərdə böyük istirahət zonalarının yaradılması yolu ilə uğurla həll edilə bilər. Şəhərlər üçün təbii cəlbedici yerlərə malik ərazilərin seçilməsi, yaşıllıqların və təbii landşaftın daha ifadəli sahələrinin hərtərəfli qorunması əhalinin kütləvi istirahəti probleminin effektiv və tamdəyərli həll edilməsinin mümkünlüyünün asılı olduğu şərtdir.

Yeni şəhərin rasional mütərəqqi planlaşdırma strukturunun formalaşdırılması üçün ən vacib şərtlərdən biri şəhərdə və şəhərətrafı ərazidə yaşayış yeri, iş yerləri, ictimai mərkəzlər və istirahət zonaları arasında rahat əlaqənin təşkilidir. Optimal ölçülü yeni şəhərlərdə, bu gün ən böyük şəhərlərin yaşadığı bəzən həll oluna bilməyən nəqliyyat problemi olmamalıdır. Lakin istənilən halda, şəhərdə rahat nəqliyyat xidmətini təmin etmək vəzifəsi mövcud olur. Bu hətta şəhər daxilində piyada hərəkətinin üstünlük təşkil etdiyi kiçik şəhərlərdə də mövcuddur, çünki bu şəhərlərdə bütün yüklərin daşınması xidməti, habelə insanların uzaq iş yerlərinə, vağzallara, şəhərətrafı istirahət yerlərinə və qonşu yaşayış məntəqələrinə daşınması yol nəqliyyatının üzərinə düşür. Yeni şəhərlər üçün nəqliyyat xidmətlərinə qoyulan əsas tələblər aşağıdakılardır: əmək və mədəni-məişət səfərlərinin diapazonunu minimuma çatdırmaq, yüksək sürətli nəqliyyat şəraitində onların rahatlığını və təhlükəsizliyini təmin etmək. Buna ilk növbədə şəhərin ölçüsünün məhdudlaşdırılması və yaşayış yerlərinin, iş yerlərinin, ictimai mərkəzlərin və istirahət yerlərinin rahat qarşılıqlı yerləşdirilməsi yolu ilə nail olmaq olar. Kütləvi şəkildə baş çəkilən mühüm məntəqələr arasında qısa piyada əlaqələrinin yaradılması, müxtəlif və kəsişən hərəkət axınlarının məkan ayrılması, yaşayış binalarının, ictimai və ticarət mərkəzlərinin və kütləvi istirahət yerlərinin tranzit hərəkatından təcrid edilməsi də böyük əhəmiyyət kəsb edir.Yeni şəhərlərin rasional strukturunun formalaşdırılması, tikinti növlərinin və üsullarının seçilməsi tikinti iqtisadiyyatının müasir tələbləri ilə sıx bağlıdır. Yeni şəhərlərin salınmasının səmərəliliyi son dərəcə mühüm əhəmiyyət kəsb edir. Artıq yeni bir şəhər salındığı zaman iqtisadi baxımdan uğurlu qərar verilməlidir, çünki tikinti üçün əlverişli ərazinin seçilməsi böyük qənaət etməyə imkan verə bilər. Bu qənaət mənbəyi bu və ya digər sənaye rayonunda yeni şəhərlərin yerləşdirilməsinin müxtəlif variantlarını müqayisə etməklə, rayon planlaşdırması vasitəsilə aşkarlanır. Məlumdur ki, şəhərlərin tikintisinə kapital qoyuluşları, adətən yalnız ərazinin bina və avadanlıqlarının quraşdırılması xərclərini deyil, həm də tikintinin maya dəyərini artıran əlavə xərcləri də əhatə edir (ərazinin mühəndis hazırlığı üçün xüsusilə kompleks və bahalı tədbirlər tələb edən sahələrin mənimsənilməsi, seysmikliyi yüksək olan ərazilərdə tikinti). Tikinti üçün yararlı meydançaların seçimi respublikanın əksər rayonlarında ərazinin hazırlanması ilə bağlı əlavə xərclərdən əhəmiyyətli dərəcədə azad olmağa imkan verən əsas vasitədir. Digər qənaət mənbələri şəhərin rasional planlaşdırma strukturunun formalaşdırılması və ərazinin daha səmərəli istifadəsidir ki, bu da şəhərin mühəndis avadanlıqlarının dəyərini azaltmağa imkan verir. Həyata keçirilmiş mənzil tikintisindən əldə olunan böyük təcrübə əyani şəkildə göstərir ki, yaşayış və ictimai binaların tikintisi üzrə işlərin maya dəyərinin aşağı salınmasında əsas vasitə tikinti işlərinin düzgün təşkili, tikintinin sənayeləşdirilməsi, yeni səmərəli tikinti materiallarının, konstruksiyaların və s. tətbiqidir.

Yeni şəhərin formalaşmasının ən mühüm problemi onun memarlığıdır. Yeni şəhərin mütərəqqi planlaşdırma strukturu onun bədii simasının formalaşması üçün əsas yaradır. Bütün əhali üçün böyük şərait və sağlam həyat şəraitinin yaradılması və bina və qurğuların ucaldılmasının ənənəvi metodlarını köklü şəkildə dəyişdirən tikintinin geniş sənayeləşdirilməsi, şəhərlərin tikintisi zamanı müasir elmi- texniki tərəqqinin nailiyyətlərindən istifadə edilməsi- yeni şəhərin memarlığının formalaşmasına təsir edən əsas amillərdir.Yeni şəhərlərin memarlıq simasının formalaşma şərtləri köhnə rekonstruksiya olunan şəhərlərlə müqayisədə öz səciyyəvi xüsusiyyətlərinə malikdir. Köhnə şəhərlərdə, memarlıq simasının ifadəliyi və fərdiliyi az və ya çox dərəcədə tarixən qurulmuş

planlaşdırma ilə və keçmişdə yaradılan dəyərli memarlıq ansambllarının qorunması ilə əlaqələndirilir. Yeni şəhərlərdə bu problemin həlli daha çox şəhərin yerləşdiyi yerin təbii şərtlərindən və bir çox cəhətdən məhz yeni şəhərin memarlığına özünəməxsusluq və gözəllik vermək üçün ərazinin təbii xüsusiyyətlərini üzə çıxarmaq və yaradıcılıqla istifadə etmək bacarığından asılıdır. Buna görə, yeni şəhər salınarkən memarlıq problemlərinin həlli üçün ən böyük potensial imkanlara malik bir yer seçmək son dərəcə məsuliyyətli məsələdir. Relyefin, çayın, gölün və ya digər akvatoriyaların quruluşu, mövcud meşə əkinləri və yerli landşaftın xarakterik xüsusiyyətləri belə potensial imkanlar təqdim edir.

Dünya şəhərsalma təcrübəsi göstərir ki, bir çox şəhərlərin misilsiz gözəlliyi, təbii şəraitdən böyük məharətlə istifadə etməklə yaradılmışdır. Meşələr bitkiləri olan ərazilərdə, akvatoriyalar və yastı relyeflər olmadıqda, süni su anbarlarının qurulması, yaşıllaşdırma yolu ilə təbiətin dəyişməsi yeni şəhərin tikintisinin mühüm vəzifələrindən birinə çevrilir. Lakin yeni şəhərlərin ifadəli və təsirli simasının formalaşdırılmasında əsas vasitə iri memarların- tur ansambllarının yaradılmasıdır. Təbii landşaftın və memarlığın birləşdirilməsi yeni şəhərlərdə müasir insanın yeni həyat tərzinə və mənəvi ehtiyaclarına uyğun maddi və bədii mühit yaratmağa imkan verəcəkdir.

**Nəticə.** Sosial və elmi- texniki tərəqqinin tələblərinə cavab verən yeni şəhərlərin tikintisi mürəkkəb bir vəzifədir.Problemin müvəffəqiyyətlə həlli üçün: yeni şəhərlərin inkişaf proqnozlarını elmi əsaslarla düzgün müəyyən etmək; ümumi əsas tələbin həyata keçirilməsini təmin etmək- yeni şəhərlərin tikintisi aparılan və aparılacaq ərazilərdə təbii- coğrafi şərait çox müxtəlif olduğu halda insanlar üçün ən yaxşı yaşayış şəraitini yaratmaq; hər bir şəhərin inkişaf prosesində hazırki dövrün və gələcəyin tələblərini mürəkkəb və ziddiyyətli şəkildə birləşdirmək; müasir sənaye əsasında tikintinin kütləvi kompleks şəkildə həyata keçirilməsi üçün daha əlverişli şərait yaratmaq; şəhərin memarlıq simasının yüksək estetik keyfiyyətlərinə nail olmaq. Bu problemlər kompleksinin həlli üçün son onilliklərdə yeni şəhərlərin salınması təcrübəsinin dərindən təhlili tələb olunur. Belə hərtərəfli təhlil onların planlaşdırılmasında və tikintisində gələcək üçün əhəmiyyətli olan mütərəqqi tendensiyaları üzə çıxarmağa kömək edir və eyni zamanda səhvlərin təkrarlanmasının qarşısını alır.

## Ədəbiyyat

1. Нагиев Н.Г. Современное градостроительство Азербайджанской Республики. Təhsil işçisi mətbəəsi MMC, Баку, 2011

2. Нагиев Н.Г., Гусейнов Ф.М. История архитектуры Азербаджана. Современная история архитектуры Азербайджанской Республики. V том, Издательский дом Шарг- Гарб, Баку, 354 с., 2013

3. Смоляр И.М. Новые города (планировочная структура городов промышленного и научно-производственного профиля). Изд.Литературы по строительству, Москва, 184 с., 1972

4. Фатуллаев Ш.С. Градостроительство и архитектура Азербайджана XIX начала XX века. Ленинград- Стройиздат, 456 с., 1986

## References

1. Nagiev N.G. Sovremennoe gradostroitel'stvo Azerbajdzhanskoj Respubliki. Təhsil işçisi mətbəəsi MMC, Baku, 2011

2. Nagiev N.G., Gusejnov F.M. Istoriya arhitektury Azerbadzhana. Sovremennaya istoriya arhitektury Azerbajdzhanskoj Respubliki. V tom, Izdatel'skij dom Sharg- Garb, Baku, 354 p., 2013

3. Smolyar I.M. Novye goroda (planirovochnaya struktura gorodov promyshlennogo i nauchno-proizvodstvennogo profilya). Izd.Literatury po stroitel'stvu, Moskva, 184 p., 1972

4. Fatullaev Sh.S. Gradostroitel'stvo i arhitektura Azerbajdzhana XIX nachala HKH veka. Leningrad-Strojizdat, 456 p., 1986

Redaksiyaya daxil olma/Received 16.09.2020
Çapa qəbul olunma/Accepted for publication 16.10.2020